

## İLTİMAS SƏMİMİ

### ACI SÜKUTU

Sürüşdü ovcundan şirin bir yuxu,
Yüyürdü arxanca döydüyün qapı.
Nədir içindəki bu acı qorxu,
Ayrılıq əzabı, hicran əzabı.

Bu daşda nə hiss var, nədəki duyğu,
Dayanıb qarşında kəsib yolunu.
Bəlkə, daşa dəyib taleyin oxu,
Əbəsdir, söz ilə qorxutma onu.

Ümidi kəsilmiş hıçqırıb ağlar,
Ahı göy üzündən qovar buludu.
Gözündə min kədər, min intizar var,
Bu da taleyinin acı sükutu.

***09 sentyabr, 2019***

### MATƏM LİBASINDA ƏNGİN ÜFÜQLƏR

Qaçıb gözlərimin şirin yuxusu,
Elə bil üzümə bağlanıb yollar.
Xəyal dünyasının ağuşunda mən,
Bu alın yazıda demə, nələr var.

Gah dönüb geriyə baxıram elə,
Gəlir xatirimə unutduqlarım.
Gah, donub yerimdə susuram yenə,
Fikir ümmanında çəkmir avarım.

Nə yaman darıxır köksümdə ürək,
Elə bil, ömrümün son anlarıdır.
Matəm libasında əngin üfüqlər,
İçimi göynədən can azarıdır.

***14 sentyabr, 2019***

### SƏNİ

Köz-köz ürəyimi yandıran dərdim,
Azmı öz içimdə gəzdirmək səni.
Nə tüstün görünür, nə də ki odun,
Qorudum özümdə özüm tək səni.

Nə polad tab edər, nə qaya dözər,
Hər zərrən ömrümdən bir qarış kəsər.
Qalxsam göy üzünə, göy özü bezər,
De, necə daşısın bəs ürək səni?

Hərənin öz dərdi, öz qəmi varsa,
Hərənin sirdaşı,həmdəmi varsa.
Fikrin də öz anı, öz dəmi varsa,
Zaman da, yel kimi ötəcək səni.

***16 sentyabr, 2019***

### BİR ÜMİD YERİ

Bəlkə də, göylərin yuxusu qaçıb,
Bəlkə də, çaylar da yorulub tamam.
Dənizin dilində danışmaq çətin,
Qırılan bir ayna, sönən bir şamam.

Hələ neçə ürək intizar çəkər,
Ümidi, gümanı ağlara bükər.
Arxamca boylanıb göz yaşı tökər,
Nə bəxtə ümid var, nə ömrə inam.

Hardasa kəsilər ömür kəndiri,
Göynəyər qəlblərdə bir ümid yeri.
Salar xəyalına xatirələri,
Acı tale kimi yuxular haram.

***20 sentyabr, 2019***

## ÖTÜB KEÇDİ

Taqətdən düşmüş
Ayaq izlərimdir.
Yollarda,
Balıq-balıq can verir.
Kimi gündüzdən,
Kimi gecədən yorulur.
Susur,
Bu dağ cığırları,
Min ilin yorğunluğunu,
Çiyinlərində daşıyan
Bu daşlı qayaların
Səbri tükənib artıq.
Canım bulaq,
De, səndən kimlər
Səssiz-səmirsiz ötüb keçdi.
Hər damlanda bir xatirə var...

***06 sentyabr, 2019***

## TORPAQ KİMİDİR

Bu da, son haray
Söykəndiyin ağacdan,
Sonuncu
Yarpaq da düşdü.
Bu payız da, belə ötdü,
Küləkli, yağışlı.
Xəyalımda sən,
Bir də, görüşdüyümüz günlər.
Daha xatirələr
Ot-ot göyərməz.
Yaddaşımız susuzluqdan
Cadar-cadar olmuş torpaq kimidir.

***07 sentyabr, 2019***

## TANIŞDIRMI?

Üzünə açılmayan qapıdır,
Arxasında uşaqlığın
Sənə sarılmaq istəyir.
Bu divar,
Bu ağac sənə tanışdırmı?
Divarı yağış yuyur,
Ağacı külək sığallayır.
Sənsə, səssiz-səmirsiz
Dilin söz tutmur.
İçində bütün
Xatirələr ölüb
Elə bil.

***09 sentyabr, 2019***

## XATIRLAYA BİLMİRİK

Haçansa unutduqlarımız
Yadımıza düşdükcə,
İçimiz köz-köz yanar.
Ahımız ərşə dirəndikcə,
Yer ayağımızın
Altından qaçar.
Haçansa dəniz də,
Bizdən üz döndərər.
Dalğalar şir pəncəsi kimi
Sahili cırmaqlayar.
Acı qorxu
Qarabaqara bizi izləyər,
Bir də, geriyə dönüb
Keçmişi xatırlaya bilmərik...

***10 sentyabr, 2019***

## HƏSRƏTİNLƏ YAŞADIM

Apardığın bir ovuc
Tanış səs,
Bir damla
Sevgi qoxusu
Və bir əlçim ümid idi.
Ayaq izlərin,
Sevgi məktubudur.
Harda bitəcək, bilmirəm...
Bəlkə, əllərindən tutan da,
Bəlkə, bir yaz axşamı,
Bəlkə, bir ömür belə
Həsrətinlə yaşadım.

***10 sentyabr, 2019***

## SUSURDUM

Soyuq divarlara
Qısıldığın kimi,
Qısıldım yağışın
Pıçıltısına.
Gözümə bir kimsə
Görünmədi.
Çiynimdə sevgi tabutu,
Ovcumda ılıq bir nəfəs,
İçimdə qovrulan
"Ümid" kəlməsi.
Ayaq səslərin
Yolların yaddaşında çırpındıqca,
Susurdum.

***11 sentyabr, 2019***

## SUALLAR HƏLƏ BİTMƏMİŞ

Suallar hələ bitməmiş,
Arxada qoyduğumuz
İlləri xatırlamaqdan başqa,
Bir şey bacarmadıq.
Uzun bir ayrılıq anladan
Bu yol,
Haçansa bizi qovuşdurar.
Əllər qırış,
Saçlar ağ.
Gözlər sönük bir sevgi ocağı.
Baxışlar payız günəşi kimi
Haçansa üz-üzə durub,
Susacağıq.

***14 sentyabr, 2019***

## DARIXIRDI

Dilim söz tutmurdu.
Hər şey bitmiş kimi,
İçimdə
Tabut-tabut daşıdığım ağrılar,
Və uğursuz sevgim.
Xəyalımda,
Tanış bir səs,
Üzümə dəyən ılıq bir nəfəs.
Kölgəsində dincəldiyim o ağac,
Darıxdığım kimi,
Baxdığım dəniz də,
Adladığım yollar da darıxırdı...

***17 sentyabr, 2019***

## DARIXMA

Darıxma,
Səssiz-səmirsiz
Buludlar axacaq.
Sükutu sevmədiyin kimi,
Ağaclar da küləyi sevmir.
Bu payız da, küləksiz ötüşməz,
Yağışın hər damlasında
Bir səs çırpınar.
Nə qədər xatırlamaq istəsən də,
Unutduqların yadına düşməz.

***19 sentyabr, 2019***